анализе все больше внимания уделяется вопросам учебной программы и методам эффективного преподавания второго или более иностранных языков. Для этого требуются специальные знания преподавателей в области разработки учебных программ. Развитие навыков проектирования также является одним из ключевых видов деятельности в рамках преподавания в начальной школе.

## İBTİDAİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN TƏDRİSİ VƏ ÖYRƏNİLMƏSİ

***Talıbova Aygün Nofəl qızı***

***Xülasə***

Son onillikdə Avropa təhsil siyasəti ilə paralel olaraq xarici dillərin tədrisindən, pedaqoji analizlərdən daha çox diqqət tədris proqramlarının və ikinci və ya daha çox xarici dillərin effektivli tədrisinə ayrılır. Buna görə də müəllimlərdən tədris proqramlarının xüsusi təhlili bacarığı tələb olunur. Fənnlərin inkişafının layihələşdirilməsi eyni zamanda ibtidai məktəblərdə tədris çərçivəsində açar fəaliyyətlərdən biridir.

***Rəyçi: dos. Fil.f.d. Mehdi Rəhimov, fil.f.d.Abdullayeva Elnarə***
***Qrammatika və ingilis dilinin tədrisi kafedrasının 29 mart 2021-ci il tarixli iclasın 07 saylı protokolu***
***Daxil olma tarixi 06 aprel 2021-ci il***

**UOT:82-09.**

# HÜSEYN CAVİDİN "TOPAL TEYMUR" ƏSƏRİNDƏ DİQQƏT ÇƏKƏN MƏQAMLAR

***Xəlilova Qəribə Yahya qızı***
***Gəncə Dövlət Universiteti***
***gceferova @rambler.ru***

**Xülasə:** *Cavid möhkəm xarakteri, heç bir səciyyəvi xüsusiyyəti olmayan, tez-tez təsir altına dü-şən, zəif iradəli, bir sözlə, xaraktersiz insanları heç cürə qəbul etmir. Ədibin dramaturgiyasına nəzər yetirsək, onun yaratdığı bütün surətlər qəhrəman ruhlu, əzmkar, cəngavər xarakterli tiplərdir. Cavidə görə, ruhi və mənəvi xüsusiyyətlərini qabarıq şəkildə fərqləndirən xarakter, həmin fərdin müxtəlif şəraitdəki davranışında, başqa adamlara münasibətində, ictimai və şəxsi həyatın verdiyi qiymətdə təzahür edir. Əsl mərdanə insanların xasiyyət və keyfiyyətləri mühitin, onu əhatə edən ictimai quruluşun təsiri ilə yaranır və tərbiyə olunur.*

*Tarixən türkün düşmənləri tərəfindən dünyaya zalım, zülmkar və qaniçən bir fateh kimi təqdim edilən Əmir Teymur şəxsiyyəti, Cavid yaradıcılığında rus şovinist imperiyasının tuğyan etdiyi bir dövrdə yüksək sənətkarlıqla təsvir edilmişdir.*

**Açar sözlər:** ədəbiyyat, sənətkar, milli, tarixi, ədəbi-inkişaf, mədəniyyət, yaradıcılıq, ictimai quruluş.

**Ключевые слова:** литература, мастер, национальный, исторический, литературное развитие, культура, творчество, общественное строение.

**Key words:** literature, craftsman, national, historical, literary-development, culture, creativity.

XIX əsrdə ədəbiyyatımızda başlayan dəyişmə və yeni istiqamətli inkişaf XX əsrin əvvəllərində yüksək pilləyə çatdı. Bu mərhələ bir çox ədəbi janrların yaranması ilə yanaşı, ədəbiyyatımızda yaxın ideya-estetik görüşlü şair və yazıçıların yeni ədəbi cərəyanlar yaratması ilə də diqqəti cəlb edir. XX əsrin əvvəllərində realizm, romantizm, sentimentalizm və s. cərəyanların yaranması buna sübutdur. Romantizm və realizm dövrün əsas ədəbi cərəyanlarıdır. Bu bir həqiqətdir ki, XX əsr romantik ədəbiyyatımızda iki böyük mütəfəkkir,

iki böyük dahi, filosof-şair olmuşdur: Məhəmməd Hadi, Hüseyn Cavid. Sovet ideologiyası nə Azərbaycan romantizminin, nə də onun əsas təmsilçilərinin yaradıcılığını, ideya-məfkurəvi istiqamətini obyektiv şəkildə öyrənməyə imkan vermirdi. Cavid yaradıcılığı Azərbaycan romantizmi tarixində özünəməxsus bir yer tutur. İnsan ruhunun, onun gerçək aləmə münasibətinin öyrənilməsində çox böyük rola malik olan Cavid romantizminin tədqiqi, ideyalar aləminin müxtəlif aspektlərdən öyrənilməsi, tarixə və çağdaş zamana münasibətinin qabarıq şəkildə tədqiqata cəlb edilməsi, məfkurəsinin dərindən araşdırılması ədəbiyyatşünaslığımızın həmişə aktual problemlərindən olmuşdur. 20-ci illərdən bu tərəfə cavidşünaslıq uzun və çox çətin bir yol keçmişdir. Amma Cavidin bütün yaradıcılığına, o cümlədən dramlarına tədqiqatçılar tərəfindən eyni mövqedən yanaşılmamışdır. Bizim ideologiyamıza, şüurumuza özümüzü dərk etmək baxımından təsir edəcək fikirlərin açılmasının, Hüseyn Cavid yaradıcılığında qəhrəman konsepsiyası mövqedən yazılan əsərlərin üzə çıxarılmasının qarşısının alınmasının, tarixlərin gizlədilməsinin və ya təhrif edilməsinin zamanı keçmişdir. Faktlara obyektiv yanaşma, ideoloji yönləndirməni üstələməkdədir. Məhz belə bir şəraitdə Cavid kimi sənətkarların yaradıcılığının tədqiqi bir daha aktuallaşmaqdadır. Müasir ədəbiyyatşünaslığımızın bir çox problemlərinin həlli baxımından Cavid yaradıcılığına müxtəlif istiqamətlərdən müraciət etmək olar. Bunların biri də Cavidin qəhrəman konsepsiyasıdır. Cavidin romantik qəhrəmanları bəşəriyyətin əbədi problemlərinə dövrün problemləri işığında cavab axtarır. Ta qədimlərdən, insan yaranandan bəşər övladını bu suallar düşündürür: İnsan nə üçün yaradılıb? Dünyanı kim və ya kimlər idarə edir? Dünyada baş verən faciələrin səbəbi nədir? İnsanın və cəmiyyətin xoşbəxtliyi nəyə bağlıdır? və s. Cavid zəmanəsinin görkəmli mütəfəkkiri kimi bu suallara yeri gəldikcə toxunmuş, onlara cavab axtarmışdır. Lakin onun düşüncələri, insanı və dünyanı necə görmək istəyi, bədii-fəlsəfi konsepsiyası və bunun qəhrəmanları üzərinə paylanması sistemli şəkildə ayrıca tədqiq olunmamışdır. Cavidin qəhrəmanları sahib olduqları xarakterik keyfiyyətlərə görə sovet ədəbiyyatşünaslığında çox vaxt mübahisə mənbəyinə çevrilmiş və ədib bir çox qəhrəmanlarına (Afət, Elxan, Topal Teymur və s.) görə nüfuzlu ədəbiyyatşünaslar tərəfindən belə, yanlış mövqedən təhlil olunaraq qınağa məruz qalmışdı. Göstərdiyimiz cəhətlər və müəllifin ideya-sənətkarlıq xüsusiyyətlərinin üzə çıxarılmasında qəhrəmanın müstəsna rolu mövzumuzun müasir ədəbiyyatşünaslıq üçün nə qədər aktual olduğunu göstərir. [3,125]

H.Cavidin ədəbi irsi elə bir zəngin xəzinədir ki, onu araşdırdıqca qədim türklərin alp-ərdəmli soy-kökündə, etnogenezində qərarlaşmış qəhrəmanlıq, igidlik əlamətləri qanına, canına hopmuş, onların mənəvi ruhlarının mayası olan yaşayış qayda-qanunları, həyat tərzi qayəsinə dərindən yaxınlaşırsan. Cavidin "Topal Teymur" əsəri türk xalqının böyük sərkərdəsi Fateh Teymura həsr olunsa da, əsərdə yalnız Türküstanın deyil, bütövlükdə Turan aləminin uzaq qərinələrdən gələn alp-ərənlik ruhu çırpınır. Əsərdə Teymurun yeni bir savaşa hazırlaşdığından xəbərdar olan Olqa Orxana deyir: "Halbuki, onun üzündə heç bir şiddət və həyəcan izi yox..." hər zamankı vüqar və ciddiyyəti, hər zamankı halı üstündə". [1,154]

Şair Orxanın sözləri ilə böyük iradi güc, səbr, dözümə malik olan qaplan şücaətli sərkərdənin daxili aləmini açıqlayır. Yəni, Cavid təkcə böyük sərkərdə olan Teymur obrazının təhlilinə çalışmır, o, eyni zamanda, fiziki-iradi keyfiyyətlərin insan xarakterində yaratlığı dəyişiklikləri, onun sonrakı fəaliyyətində əldə edəcəyi qabiliyyətlərin ilkin əsası kimi qabarıq cizgilərlə verir.

Həyati təcrübələr təsdiq etmişdir ki, çətin, ağır sınaqlara tab gətirmək üçün, hər şeydən öncə, insanın iradəsi tərbiyə edilməlidir. Heç təsadüfi deyil ki, qəhrəmanlığı yaradan böyük iradi əzm, təmkin, dəyanət, fiziki inkişaf, xarakter və özünəinamdır.

H.Cavid cəsarəti, hünəri qarşısında baş əydiyi, səcdə etdiyi, sevərək yaratdığı böyük Əmir Teymurun yenilməz bir şəxsiyyət kimi formalaşmasında fiziki tərbiyə amillərinin, o cümlədən, mahir minicillik qabiliyyəti, ox-yay süzdürməsi, qılınc çalması, qurşaq tutması, habelə, səriştəli bir səyyad kimi ovçuluqda ad qazanması ilə yanaşı, gözəl şahmat bacarığını

da vurğulayır: "Mənə xaqanlar xaqanı, Turağay oğlu Teymur derlər. Mən Yeşil şəhərdə dünyaya atıldım, Səmərqənddə nəşvü nüma buldum. Babam Barlas qəbiləsinin hökmranı, özüm Gürgan nəslinin baş qəhrəmanı..."[2,59]

Yerə, göyə sığmayan fəhm-fərasət, iti, çevik yaddaş, tanrının bəxş etdiyi cəsarət, qətiyyət, cismani dözüm və intəhasız fiziki qüdrət... hamısı bu diribaş türk cocuğunun cismini bələmişdi. Böyük hökmdar sonra istehzalı təbəssümlə əlavə edir: "Mən on iki yaşında ikən kəndimdə bir fərasət və böyüklük duymağa başladım. Mənimlə görüşənləri ciddi bir vüqar və hörmətlə qubul edərdim. On səkkiz yaşımda minicillik və avçılığa həvəs etdim. Vəqtimin çoxunu Quran oxumaqda, şahmat oynamaqda və at oynatmaqda keçirdim. Sonra Əmir Qazana yanaşdım, Hüseyn Kürd ilə savaşdım. İlyas Xocaya qoşdum, vəzirinlə pozuşdum. Oradan uzaqlaşdım, türkmənlərə əsir düşdüm. Sonra bir çox arkadaşla buluşdum. Blucistanla vuruşdum. Gah qalib gəldim, gah məğlub oldum. Ayaqdan bir yara aldım, iştə böylə ağsaq qaldım. Əvət mənəm yaralı arslan, mənəm Topal Qaplan". [1,132]

Cavidin "Topal Teymur" əsərindəki mübariz ruh o dövrün türk məişətindən, onun qaynar həyatından doğmuşdur. Məlum həqiqətdir ki, qədim türk tayfaları döyüşkən nəsillər olub öz güzaranlarını, gün-dirriklərini hərb, savaş gücünə yaratmışlar. Dövrün ruhu, uzun müddət mübarizə meydanlarına davam gətirmək üçün bir çox fiziki təmrinlərin, iradi keyfiyyətlərin, güc-qüvvət püxtələşdirən savaşların aşılanmasını tələb edirdi. Cavid Teymur obrazının sadə təsvirində də həmin keyfiyyətləri elə bir ustalıqla təsvir edir ki, oxucu dərhal "bu orta boylu, qəvi bünyəli, omuzları geniş, barmaqları yuvarlaq, qılçaları uzun, əzələtı ğayət sağlam" şəxsiyyətdə daxili səbat, böyük iradi qüvvə hiss edilir. Türk sərkərdəsinin qanlı, amansız qovğa və döyüşlərdən hər dəfə qalibiyyətlə çıxmasının başlıca səbəblərindən biri də türklərin hələ uşaqkən dava, savaş meydanlarında bərkiməsindən irəli gəlir: "Biz türklər çadır altında doğar, açıq səhralarda, qanlı müharibələrdə ölürüz... Müharibədə ölənlər evdə ölənlərdən sayca daha azdır. Məncə mübarizəsiz bir ömür, ömür deyil... Biz türklərə qürur və nəşə verən bir şey varsa, o da müharibə, o da qabiliyyətdir".

Cahanşümul bir sərkərdə, qüdrətli cahangir olan Teymur şəxsiyyəti insana hörmət, igi•də, mərdə böyük sədaqət hissi təlqin edir. İldırım Bəyazidi əsir aldığı zaman ona rişxəndlə yazdığı, kinli, acı və zəhərli sözləri unudaraq deyir: "İştə, mən bu məktubdakı sözlərizizi unutdum və sizi əfv etdim. Yalnız əfv etmək deyil, hətta məhəbbətinizi də qazanmaq istərəm".

Məğribdən-məşriqə qədər hüdudsuz əraziləri dünyaya meydan sulayan Teymurun iradəsi qanlı mübarihələrdə, qovğalı savaşlarda, cəng döyüşlərində formalaşmışdır. Mütəşəkkil və nizami ordusu ilə dünyanı lərzəyə salan Teymur iti zehni, dəmir iradəsi, böyük siyasəti ilə nəinki şərq aləmində, eləcə də qərbdə tanınan, qəbul edilən hərb xadimi kimi ən nəhəng simalardan biri olmuşdur: "Sonra Cetləri boğdum, Cığatay elini Mavərünnəhrdən qovdum, Səmərqəndə girdim, xalqdan hörmət gördüm. Qurultay çağırdım, sözümü keçirdim. Bəlx şəhərinə vardım, Əmir Hüseynin işini bitirdim. Təkrar Səmərqəndə döndüm. Əmir elan olundum. Qəmərəddinlə çarpışıb qalib gəldim; Qızı Dilşad ağayı aldım. Xarəzmə girdim, qələlərini devirdim. Azərbaycan qucağıma atıldı. Kürdüstan təslim olaraq qurtuldu, Ermənistan və Gürcüstan xəracgüzarım oldu. Qaraqoyunlular üsyan etdi, ayaq altında əzildi. Şah Mənsur tüğyan etdi, bir anda başı kəsildi. Əvət mənəm cahangir dahi!... Mənəm hərb allahı!..."

H.Cavidin layiqli tədqiqatçılarından olan, yaradıcılığının çiçəkləndiyi bir dövrdə dünyasını çox erkən dəyişən mərhum tənqidçi Məsud Əlioğlu ədibin fiziki yaradıcılığında iradi - əxlaqi, əqli və intellektual baxımdan öz oxşarı olan fikir və qılınc cahangirlərinə istək və arzularını açıqlayır: "Cavid qəhrəmanlığın, cəngavərliyin pafosunda bütün ruhu ilə yaxından bağlı olmuş və əzəmətli şəxsiyyətlərin bədii surətini rəsm etməkdən daxili nəşə və sevinc duymuşdur".[4,98]

Cavid "Topal Teymur" əsərində orta əsrlər türk xalqları arasında populyar idman növü kimi tanınan gimnastika (akrobatika), həmçinin atüstü milli xalq oyunlarından olan çovkan,

qəpəq, xüsusilə cirid oyunu, habelə müxtəlif oyun və əyləncələrin musiqinin müşayiəti altında keçirilməsini yada salır. Ədib bu idman oyunları və əyləncələrin musiqi sədaları altında həyata keçirilməsinirn zəruriliyini də unutmur. "Hələ Hindistandan gəlmə canbaz və oyunçular, mizahçı və lətifəçilər, rəqqas və rəqqasələr... Bir tıqım cirit oyunları. Pəhləvanların güləşməsi, yaşıl-qırmızı rənglərlə boyanmış fillərin oynadılması, hər dürlü xanəndə və sazəndə, hər çeşit yarış və əyləncə gerçəkdən insanı sərxoş ediyor". [5, 162]

Dahi dramaturqumuz pərəstiş etdiyi, həm də mahir bilicisi olduğu şahmatdan personajların dili ilə, istər obrazlı, istərsə də bədii ifadə vasitəsi kimi məcaz şəklində yaradıcılığında bu oyuna mühüm yer ayırırdı. Qaynaqların məlumatına görə, bütün mənalı ömrünün hərbə həsr etmiş, saysız qovğa və gənc savaşlarda bərkimiş türkün cahangir sərkərdəsi asudə vaxtarında şahmata sarılarmış.

Böyük xaqanın həyatında şahmatla bağlı bəzi maraqlı məqamlara digər mənbələrdə də tövsiyə edilir. "İldırımı Şahənşah Teymurun çadırına gətirdilər. Deyir o vaxt qələbə çalındığını görən Teymur oğlu Şahruxla şətrənc oynayırdı. Xidmətçi İldırımın gətirilmə xəbəriylə çadıra girdiyi an Teymur şahı ilə qarşıdakı qalanı və "Şah ruh!" demişdi (“ruh” şahmatda qala daşınının adıdır, yəni - top-M.A.). Bu qəribə təsadüfdən sonra Əmirin əsl adı Müipüddünya Səid Bahadır olan oğlu Şahrux adını aldı".

Tarixən türkün düşmənləri tərəfindən dünyaya zalım, zülmkar və qaniçən bir fateh kimi təqdim edilən Əmir Teymur şəxsiyyəti, Cavid yaradıcılığında rus şovinist imperiyasının tüğyan etdiyi bir dövrdə yüksək sənətkarlıqla təsvir edilmişdir. Yurduna, xalqına sonsuz məhəbbəti, ordusuna, əsgərinə qayğıkeş münasibəti, öz ulularından əxz etdiyi ağıl, iradə, səbr, fitri istedad məhz qüdrətli Teymur şəxsiyyətini xarakterizə edən yüksək insani keyfiyyətlərdir. "Orxan! Əcələ edirsən, mən səni alçaltmaq deyil, yalnız imtahan etmək istədim. Unutma ki, Teymur şahmat oynarkən belə, taxtadan yapılmış kiçik bir piyadanı qeyb etmək istəməz. Halbuki sən cəsur və eşsiz bir qəhrəmansan. Əvət, sənin məharət və cəsarətin işlədiyin qəbahətdən daha böyükdür. Olsaydı, o dəyərli yadigarı mükafat olaraq sənə bağışladım. Fəqət qəlbin onun, düşüncə və biliklərin bizim olsun". [4,126]

Azərbaycan ədəbiyyatı tarixində türkçülük məhəbbəti ilə yeni bir çığır açmış, həyatını xalqının azadlığı yolunda fəda etmiş, onun bədii–ictimai təfəkküründə əbədi yer tutmuş, dözülməz məşəqqət və məhrumiyyətlərə mərdliklə sinə gərməklə mətanətlə tab gətirmiş Cavidin yaşadığı sağlam həyat tərzi, onun həmvətənlərinin, xüsusilə də gənclərin fiziki təkmilləşməsi üçün bir örnəkdir.

Keşməkeşli və əzablı bir həyat yolu keçmiş H.Cavid əqlin qüdrəti, zəkanın hünəri ilə yanaşı, hətta uzaq Sibirin sərt iqliminə yalnız mətin xarakteri, dəmir iradəsi, sağlam vücudu və mənəvi dözümü ilə tab gətirə bilmişdir. Mərhum tənqidçi M.Əlioğlu haqlı olaraq göstərirdi ki, Hüseyn Cavidin sənəti, görüşləri və yaradıcılıq taleyi haqqında düşünərkən fikrmizin fövqundə çox əzəmətli və məğrur bir sima, incə, həssas, həm də son dərəcə qüdrətli bir istedad canlanır.

Qadın azadlığının əzəl carçılarından olan H. Cavid hər iki dövrün, Oktyabr inqilabından əzəlki və sonrakı dövrün banisidir. H. Cavidin qadın psixologiyasına səyahətdə bir məqsədi var idi. O, qadın psixologiyasını öyrənməklə onu vaxtaşırı düşdüyü bəlaların cəngindən xilas etmək istəyirdi. Vaxtı ilə akademik M. Cəfər haqlı olaraq Cavidin fəlsəfi faciə, tarixi və ailə dramlarından ibarət əsərlərini təhlil edərkən onları "xarakterlər dünyası" adlandırmışdır. H.Cavid beynəlmiləlçi bir şair-dramaturq olduğu üçün o bütün millətlərə sülh arzusuyla yazıb, yaratmışdır. Doğrudan da Hüseyn Cavid öz dramaturgiyasında bir millətin yox, bir çox millətlərin adət-ənənələrini ifa edən nümayəndələrin konfliktindən, xarakterindən bəhs etmişdir. XX əsr Azərbaycan ədəbiyyatına on beş orijinal əsər bəxş etmiş hünərvər H. Cavidin yaradıcılığı iki dövrü, Oktyabr inqilabından əvvəlki və Oktyabr inqilabından sonrakı sovet dövrünü əhatə edir. Nadir ədəbi simalardan olan H.Cavidin dram əsərləri istər ictimai məndərəcəsinə görə, istərsə də milli və bəşəri məzmununa görə xüsusi mövqeyi olan

əsərlərdəndir. H. Cavid bu əsərlərini bir çox təxəllüslərlə; Müxbir, Növrəs, Qədirşünas, Gülçin, Arif, Hüseyn, Salik, H. Cavid, H. Naxçıvanlı, H.R. Naxçıvani, H. Rasizadə, H.S. Rasizadə Naxçıvani, H.C. Hüseyn Cavid, Hüseyn Rasizadə Naxçıvani və s. imzalarla yazıb yaratmışdır. Rasizadə-moizə oxuyan, Tanrıdan gələnləri danışan, bir yolu olan, haqq yolunun yolçusu deməkdir. Cavid bunu dərrakəli şəkildə özünə familiya-soyad etmişdir. Özü də ölüncə bu müqəddəs əməlində nəsillikcə ruhani olduğunu isbat etmiş nəticədə Tanrı səviyyəsinə qalxıb, ulduza çevrilmişdir.

### *Ədəbiyyat*

1. Hüseyn Cavid. Əsərləri, üç cilddə. Bakı, 1968.
2. Kamal Talıbzadə. XX əsr Azərbaycan tənqidi. Bakı, 1966.
3. Firudinbəy Köçərli. Seçilmiş əsərləri. Bakı, 1963.
4. Cəfər Xəndan. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 1955.
5. Cəfər Cəfərov. Azərbaycan dram teatrı. Bakı, 1959.

## ОСНОВНЫЕ МОМЕНТЫ В ПРОИЗВЕДЕНИИ ГУСЕЙНА ДЖАВИДА "ТОПАЛ ТЕЙМУР"

***Халилова Гариба Яхья кызы***

***Резюме***

Джавид не принимает людей с сильным характером, без характерных черт, часто подверженных влиянию, безвольных, короче, без характера. Если посмотреть на драматургию писателя, то все созданные им образы героичны, решительны, рыцарские. Согласно Джавиду, характер, который различает его умственные и духовные качества, проявляется в поведении этого человека в различных ситуациях, в его отношении к другим людям, в том значении, которое он придает общественной и частной жизни. Истинная мужественность формируется и питается влиянием окружающей среды и социальной структуры, которая ее окружает.

Исторически представленный миру врагами турок как тиран, угнетатель и кровожадный завоеватель, личность Амира Теймура ярко изображена в творчестве Джавида в то время, когда бушевала Российская шовинистическая империя.

## HIGHLIGHTS IN IN THE HUSEYN JAVID'S WORK "TOPAL TEYMUR"

***Khalylova Qariba Yahya***

***Summary***

Javid does not accept people with a strong character, no characteristics, who are often influenced, weak-willed, in short, without character. If we look at the writer's dramaturgy, all the images he created are heroic, determined and knightly. According to Javid, a character that distinguishes his mental and spiritual qualities is manifested in the behavior of that individual in different situations, in his attitude to other people, in the value he places on public and private life. True masculinity is formed and nurtured by the influence of the environment and the social structure that surrounds it.

Historically presented to the world as a tyrant, oppressor and bloodthirsty conqueror by the enemies of the Turks, the personality of Amir Teymur was vividly portrayed in Javid's work at a time when the Russian chauvinist empire was raging.

***Rəyçi: dos. Q.N.Qazıyev***
***Azərbaycan və dünya ədəbiyyatı kafedrasının 6 yanvar 2021-ci il tarixli iclasın 05 saylı protokolu***
***Daxil olma tarixi 17 fevral 2021-ci il***